Ədəbiyyat QƏZETİ
24 dekabr / 2020

# Başqa birisi tərəfindən deyilməyən söz

*"Baku" jurnalı Xalq şairi Fikrət Qocadan yazdı*


БАКУ
Н  ЕМ ДРУГИМ НЕ СКАЗАННОЕ СЛОВО

"Baku" jurnalının noyabr-dekabr sayında Xalq şairi, "İstiqlal" ordenli Fikrət Qocanın 85 illiyi ilə bağlı geniş material dərc edilib. Şairin uzun və olduqca maraqlı həyat yoluna işıq tutan məqalədə Fikrət Qocanın Azərbaycan sərbəst şeirinin öndərlərindən biri kimi Azərbaycan poeziyasında yeri xüsusi vurğulanır.

Məqalədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yubileyi münasibətilə ilə Xalq şairinə zəng etməsi, daim azadlıq ideyalarını dəstəkləyən görkəmli ədib haqqında dediyi yüksək fikirlər də yer alıb.

Şairin həyatının müxtəlif dövlərini əks etdirən fotomaterialların da təqdim edildiyi məqalə Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarın dostu və həmkarı barədə söylədiyi "nəhəng şeir yaradıcısı" sözləri ilə bitir.

"Baku" jurnalının eyni sayında şair Səlim Babullaoğlunun da Xalq şairi Fikrət Qoca barədə xatirəsi yer alıb. Xatirə "Müəlliflər" rubrikasında təqdim edilib ki, bu da jurnalın maraqlı ənənələrindəndir. Belə ki, jurnalın demək olar ki, hər sayında materialların hazırlanmasında əməyi olan, yaxud jurnalla əməkdaşlıq edən kənar yazarlar barədə qeydlər və yazılar çap olunur.